EHEAROME2020

# Nazirlərin Roma Bəyanatı

19 NOYABR 2020

Translated by
PhD, Associate professor Samir Hamidov
& MSc Vusala Gurbanova

EUROPEAN
Higher Education Area

bologna process

ITALIAN BFUG SECRETARIAT
2018-2020

Translated within the Erasmus+ project "IN-GLOBAL Enhancing Knowledge of the EHEA and Global Dialogue" in 2023.

The original version of the Rome Communiqué and its annexes are available on the website of the European Higher Education Area:
https://ehea.info/page-ministerial-conference-rome-2020

Co-funded by
the European Union

Funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

Biz, ali təhsilə cavabdeh olan nazirlər, 19 noyabr 2020-ci il tarixində onlayn görüş keçirərək, Bolonya Bəyannaməsinin imzalanmasından keçən 21 ilin nailiyyətlərini qeyd edirik. Biz daha inklüziv, innovativ, qarşılıqlı bağlı və dayanıqlı Avropa Ali Təhsil Məkanının (AATM) inkişafına sadiqliyimizi bir daha təsdiq edirik.

Biz İtaliyaya konfransımızın hazırlanmasında və ev sahibliyi etməsində əsas roluna və onu COVID-19 pandemiyasının çağırışlarına uyğunlaşdırdığına görə təşəkkür edirik.

AATM ali təhsildə dövlət orqanlarının və maraqlı tərəflərin ortaq məqsədləri müəyyən etmək və onlara nail olmaq üçün birgə fəaliyyət göstərdikləri, etimad üzərində qurulmuş unikal əməkdaşlıqdır. Mədəniyyətlərimizin, dillərimizin və mühitlərimizin müxtəlifliyi və keyfiyyət, şəffaflıq və mobilliklə bağlı ortaq öhdəliyimiz sayəsində ali təhsil sistemlərimiz təlim, tədris, tədqiqat və innovasiyalar üçün misilsiz imkanlar təklif edir.

Cəmiyyətlərimiz COVID-19-un dünya miqyasında yayılması və onun nəticələri ilə bağlı görünməmiş çağırışlarla üzləşir. Pandemiya bir-birimizdən nə qədər qarşılıqlı asılı olduğumuzu və təhlükələr qarşısında nə qədər həssas ola biləcəyimizi göstərdi. Bu, bizim hamımızın, insan həmrəyliyinin zəruri olduğu vahid dünyanın parçası olduğumuzu göstərdi. Biz ali təhsil ictimaiyyətinin bu çağırışların öhdəsindən gəlinməsində göstərdiyi səyləri yüksək qiymətləndirir və təqdir edirik və həmçinin bütün məqsədlərini böhran dövründə də yerinə yetirən inklüziv, keyfiyyətli ali təhsili təmin etmək əzmində olduğumuzu bir daha təsdiqləyirik.

Biz tam inklüziv AATM-ə nail olmağı hələ də məhdudlaşdıran sosial bərabərsizlikləri aradan qaldırmağa qərarlıyıq. Rəqəmsallaşma sistemlərimizin əksəriyyətinin COVID-19 pandemiyası zamanı fəaliyyətimizin davam etməsinə imkan verdi, bununla yanaşı, rəqəmsal vasitələrin intensiv istifadəsi müəyyən məhdudiyyətləri üzə çıxardı. Transmilli, beynəlxalq əməkdaşlıq və tədqiqatlar üzrə böyük təcrübəsi ilə ali təhsil bu məhdudiyyətləri öyrənərək və tövsiyələr verərək, onlara yanaşma və onların dəf edilməsi ilə bağlı aparıcı rol oynamalıdır.

Biz 2030-cu ilə qətiyyət və nikbinliklə baxırıq, əminik ki, ölkələrimiz, ali təhsil sistemlərimiz və institutlarımız və daha geniş ali təhsil ictimaiyyəti arasında daha səmərəli əməkdaşlığı və daha sıx dialoqu inkişaf etdirməyə nail olacağıq.

Biz San Marinonu AATM-in yeni üzvü kimi salamlamaqdan məmnunuq. San Marino razılaşdırılmış yol xəritəsi əsasında öhdəliklərinin həyata keçirilməsində dəstəklənəcəkdir.

# Bizim Baxışımız

Biz AATM-nı tələbələrin, işçi heyətin və məzunların təhsil almaq, öyrətmək və tədqiqat aparmaq üçün **sərbəst hərəkət** edə biləcəyi bir məkan kimi təsəvvür edirik. **Bizim baxışımızdakı AATM ali təhsilin, demokratiyanın və qanunun aliliyinin fundamental dəyərlərinə tam hörmətlə yanaşacaqdır**. O, yaradıcılığı, tənqidi düşüncəni, biliyin sərbəst dövriyyəsini təşviq edəcək və texnoloji inkişafın tədqiqat əsaslı təlim və tədris üçün yaratdığı imkanları genişləndirəcəkdir. Bu, ali təhsil sistemlərimizin bütün təhsilalanlara, onların potensiallarına və səylərinə uyğun bərabər imkanlar yaratmasını təmin edəcəkdir. Biz qəbul edirik ki, buna nail olmaq üçün milli səviyyədə siyasi qərarların qəbul edilməsi və tədbirlərin həyata keçirilməsi tələb olunacaqdır; bu qərarların və tədbirlərin bir qismi ali təhsil sistemlərimizin hüdudlarından kənara çıxacaq və daha geniş milli iqtisadi, maliyyə və sosial strategiyaların uyğunlaşdırılması tələb olunacaqdır.

Baxışımıza nail olmaq üçün biz 2030-cu ilə qədər davamlı, bütöv və sabit Avropanı dəstəkləyə bilən inklüziv, innovativ və qarşılıqlı bağlı AATM qurmağı öhdəmizə götürürük:

- **İnklüziv**, çünki hər bir tələbənin ali təhsilə bərabər çıxışı olacaq və təhsil və təlimlərini başa vurmaq üçün onlar tam dəstəklənəcək;
- **İnnovativ**, çünki tədqiqatla sıx əlaqəli olan, yeni və daha uyğun öyrənmə, tədris və qiymətləndirmə metodları və təcrübələrini təqdim edəcək;
- **Qarşılıqlı bağlı**, çünki bizim ortaq çərçivə və vasitələrimiz beynəlxalq əməkdaşlığı və islahatları, bilik mübadiləsini və heyətin və tələbələrin mobilliyini asanlaşdırmağa və gücləndirməyə davam edəcək.

Ali təhsil müəssisələri davamlılığa, ətraf mühitin mühafizəsinə və digər mühüm məqsədlərə töhfə verəcək, tələbələrin və cəmiyyətin bilik, bacarıq və səriştələrini təkmilləşdirəcək əsas dəyişikliklərin hərəkətverici qüvvəsi olacaq potensiala malikdir. Onlar tələbələri fəal, **tənqidi düşüncəli və məsuliyyətli vətəndaşlar olmağa** hazırlamalı və onlara ictimai rollarında dəstək olmaq üçün ömür boyu təhsil imkanları təklif etməlidirlər.

Ali təhsil **2030-cu ilə qədər Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) çatmaqda** əsas rol oynayacaqdır. Biz ali təhsil müəssisələrimizin təhsil, tədqiqat və innovasiya potensiallarının həmin fundamental qlobal məqsədlərə çatması üçün dəstəkləməyi və ali təhsil sistemlərimizin **DİM-lərə** nail olunmasına töhfə verməsini təmin etmək üçün resursları bölüşməyiöhdəmizə götürürük. İqlim neytrallığına doğru hərəkət etmək bizim hamımız üçün vacibdir və tələbələr yeni "yaşıl" işlərə və fəaliyyətlərə hazır olmalıdırlar. Onlara ömürboyu təhsil perspektivində bacarıqların yüksəldilməsi və yeni bacarıqların qazanılması imkanları təklif edilməli, yeni texnologiyalar və yanaşmaları inkişaf etdirib tətbiq etmək imkanı yaradılmalıdır.

**Keyfiyyətli təhsil** AATM-in fərqləndirici xüsusiyyəti olmaqda davam edəcəkdir. Akademik saxtakarlığın və elmi həqiqətin təhrif edilməsinin bütün formalarının qarşısını alan güclü **akademik və elmi dürüstlük** mədəniyyəti bütün ali təhsil müəssisələri və bütün dövlət orqanları tərəfindən dəstəklənəcəkdir.

# Fundamental Dəyərlər

Demokratik cəmiyyətlərin, eləcə də keyfiyyətli öyrənmə, tədris və tədqiqatın vacib əsası olan **dərinləşdirilmiş siyasi dialoq və əməkdaşlıq AATM üçün ümumi olan, fundamental dəyərlərimizi** təşviq və müdafiə edən öhdəliklərimizi bir daha təsdiq edir.

Biz institusional muxtariyyəti, akademik azadlığı və dürüstlüyü, tələbələrin və heyətin ali təhsil idarəçiliyində iştirakını, ali təhsilin və ali təhsil üçün ictimai məsuliyyəti dəstəkləməyi öhdəmizə götürürük.
Biz BTİQ-dən AATM-in fundamental dəyərlərinin gücləndirilməsi üçün milli hakimiyyət orqanları, ali təhsil müəssisələri və təşkilatlar arasında özünü ifadə etmə, konstruktiv dialoq və tələbə-həmkar təlimini təşviq edəcək, eyni zamanda, sistemimizdə buna hansı dərəcədə riayət edildiyini və tətbiq edildiyini qiymətləndirməyi mümkün edəcək **çərçivə** hazırlamağı xahiş edirik. Biz **akademik azadlığın tərifini** akademik heyətin və tələbələrin müdaxilə və ya repressiya qorxusu olmadan, cəmiyyətdə və cəmiyyətlə tədqiqat, tədris, öyrənmə və kommunikasiyada olmaq azadlığı kimi qəbul edirik (***Əlavə I***).

Biz təhsildə, həmçinin, təhsil vasitəsi ilə və tədqiqatda etika, şəffaflıq və dürüstlüyün təşviqinə dair öhdəliklərimizi bir daha təsdiqləyirik və qeyd edirik ki, Avropa Şurasının Təhsildə Etika, Şəffaflıq və Dürüstlük üzrə Platforması (ETINED) bütün AATM üzvlərinə, məsləhətçi üzvlərə və tərəfdaşlara bu məqsədə çatmaq üçün əməkdaşlıq etmək imkanını təklif edir.

# Gələcəyi qurmaq

## Gələcəyi qurmaq

**Sosial inklüziv ali təhsil** AATM-ın əsasında qalacaq və cəmiyyətin bütün hissələrindən olan fərdlərin bərabər şəkildə təhsilə daxil edilməsi üçün imkanların və dəstəyin təmin edilməsini tələb edəcəkdir. Müxtəlif sosial-iqtisadi, peşəkar, mədəni və təhsil keçmişinə malik olan tələbələr həyatlarının istənilən dövründə onlar üçün ən faydalı olan təhsil seçimlərini axtarıb tapmaq və onlardan istifadə etmək imkanına və alətlərinə malik olmalıdırlar.

Biz rəqəmsallaşmanın təqdim etdiyi yeni imkanlardan tam istifadə edərək, sosial inklüzivliyin möhkəmləndirilməsi və keyfiyyətli təhsilin gücləndirilməsi öhdəliyini götürürük. Cəmiyyətlərimiz getdikcə daha çox innovativ texnologiyalara, o cümlədən süni intellektə bağlansa da, biz onların etik standartlara və insan hüquqlarına riayət etməsini təmin etməli və inklüzivliyi gücləndirməliyik. Biz başa düşürük ki, rəqəmsallaşma hamıya uyğun olacaq “vahid həll” təklif etmir və BTİQ-dən bütün tələbələrin yeni texnologiyalardan faydalana bilməsi vasitələrini təklif etməsini xahiş edirik.

Biz sosial ölçünün genişləndirilmiş dərkinə əsaslanan **“AATM-də Ali Təhsilin Sosial Ölçüsünün Gücləndirilməsi üzrə Prinsip və Tövsiyələr”i** (***Əlavə II***) qəbul edirik və onları [ali təhsil] sistemlərimizdə tətbiq etməyi öhdəmizə götürürük. Biz milli səviyyədə prinsiplərin və tövsiyələrin tam şəkildə necə tətbiq edilməsi ilə bağlı geniş əhatəli siyasi dialoq aparacağıq. Biz ali təhsil müəssisələrimizi öz institusional mədəniyyətlərinə və əsas missiyalarına - (öyrənmə və tədris, tədqiqat və innovasiya, bilik dövriyyəsi və sosial yardım, institusional idarəetmə və idarəetmə) inteqrasiya etməkdə dəstəkləyəcəyik. BTİQ-dən xahiş edirik ki, faktlar əsasında müşahidəni təmin etmək üçün 2024-cü ildə bizə görülən işlər və müvafiq monitorinq tədbirləri haqqında hesabat versin.

Biz qanunvericilik yolu ilə tələbə hüquqlarının qorunmasının vacibliyini qəbul edirik; biz tələbə ombudsmanları və ya bir çox AATM ölkələrində artıq mövcud olan oxşar həlləri xüsusi tədbirlər və strukturlar vasitəsilə milli sistemlərimizdə inkişaf etdirməyi və dəstəkləməyi öhdəmizə götürürük. Biz ölkələrimizdə və ali təhsil sistemlərimizdə bu cür tənzimləmələri həyata keçirmək öhdəliyini götürürük və Ali Təhsildə Ombudsmanların Avropa Şəbəkəsi (ENOHE) çərçivəsində əməkdaşlığını təşviq edəcəyik.

## İnnovativ AATM

Biz ali təhsil müəssisələrimizi **cəmiyyətlərimizin üzləşdiyi çağırışların həlli yollarının axtarışlarını** intensivləşdirməkdə dəstəkləyirik. Sosial, humanitar və yaradıcı elmlər və incəsənət həyatımıza dərinlik qataraq, bizə dəyişən dünyanı anlamaq və orada hərəkət etmək imkanı verməklə öz həyati vacib rolunu oynamağa davam etməlidir. Ümumi faydalı və sosial məsuliyyətli birgə fəaliyyət həyata keçirmək üçün ali təhsil müəssisələrimiz ictimaiyyətlə qarşılıqlı əlaqədə olmalıdırlar.

Çağırışlara cavab vermək və yeni onilliyin gətirəcəyi imkanları inkişaf etdirmək üçün **bilik, bacarıq və səriştələrin sürətlə yenilənməsi tələb olunacaqdır**. Ali təhsil müəssisələri innovativ və tənqidi düşüncə, emosional intellekt, liderlik, komanda işi və problem həll etmə qabiliyyətləri, habelə təşəbbüskar yanaşmalar üçün artan ehtiyacları dəstəkləmək məqsədilə öyrənmə ilə bağlı təkliflərini şaxələndirməyə və biliyin ötürülməsinin məzmun və formalarında üsullarında yeniliklər etməyə davam edəcəklər.

Bolonya Prosesinin başlanmasının əsaslarından biri olan **çevik və açıq öyrənmə yolları tələbəmərkəzli öyrənmənin** vacib aspektləridir və cəmiyyətlərimizdə onlara olan tələbat artır. Tam dərəcə proqramlarına əlavə olaraq, bir çox ali təhsil müəssisələri tələbələrə həyatlarının müxtəlif mərhələlərində mədəni, peşəkar və yumşaq (çarpaz) bacarıq və səriştələrini inkişaf etdirməyə və ya yeniləməyə imkan verən daha **kiçik təlim blokları** təklif edir və ya təklif etməyi planlaşdırır. Biz BTİQ-dən xahiş edirik ki, AATM alətlərindən istifadə edərək bu **kiçik, çevik, o cümlədən mikrokreditlərlə nəticələnən modulların** institutlarımız tərəfindən necə və hansı səviyyədə müəyyən edilə, inkişaf və tətbiq etdirilə və tanına bilməsini araşdırsın.

Biz **"AATM-də Ali Təhsil sahəsində Öyrənmə və Tədrisin təkmilləşdirilməsi üçün Milli Hakimiyyət Orqanlarına Tövsiyələr"i** (***Əlavə III***) qəbul edir və tələbəmərkəzli öyrənmə və tədrisin daha geniş tətbiqində ali təhsil müəssisələrini dəstəkləməklə həmin tövsiyələrə əməl etməyi öhdəmizə götürürük. Tövsiyələr bütün tələbələr, müəllim və qeyri-müəllim heyəti üçün dəstəyin gücləndirilməsini ehtiva edir. Kiçik elmi işçilər də daxil olmaqla, akademik heyətin sabit işlə təmin olunma və karyera yüksəliş imkanlarına, tədris və tədqiqata bərabər yanaşmasına, cəlbedici iş şəraitinə, kadrların inkişafının müasir sisteminə girişə və nailiyyətlərinin tanınmasına ehtiyacları var. Bu kontekstdə biz milli sistemlərimizdə öyrənmə və tədrisi, AATM səviyyəsində isə kadrların müasir inkişafı üzrə dialoqu və əməkdaşlığı inkişaf etdirəcəyik.

Biz ali təhsil müəssisələrimizi öyrənmə, tədris və qiymətləndirmə, həmçinin akademik ünsiyyət və tədqiqat üçün rəqəmsal texnologiyalardan istifadə etməkdə dəstəkləməyi və **hamı üçün rəqəmsal bacarıq və səriştələrin inkişafına** sərmayə qoymağı öhdəmizə götürürük. Biz ali təhsilin maraqlı tərəfləri arasında asanlıqla paylaşıla bilən, onların ehtiyaclarına uyğunlaşdırıla və yenidən istifadə edilə bilən biliyin və **açıq lisenziyalı materialların** mübadiləsini asanlaşdırmaq üçün açıq elmin və təhsilin inkişafını öhdəmizə götürürük.

## Qarşılıqlı bağlı AATM

**Əməkdaşlıq və mobillik** sistemlərimizi birləşdirir və mədəniyyətlərarası və linqvistik səriştələri, daha geniş bilik qazanılmasını və dünyamız haqqında anlayışın inkişafını təşviq edir. İşçi heyət və tələbələrin mobilliyi vasitəsilə müxtəlif mədəniyyətlərimiz və ali təhsil sistemlərimiz arasında birbaşa əlaqələr və sinerji AATM-də ali təhsilin mükəmməlliyinə və önəminə töhfə verir, onu qlobal miqyasda cəlbedici və rəqabətədavamlı edir. Biz tələbələr, doktorantlar və işçilər üçün fiziki mobilliyin əhəmiyyətini və faydalarını qəbul edirik. COVID-19 pandemiyası ilə bağlı mövcud çətinliklərə baxmayaraq, biz hədəfimizin **AATM məzunlarının ən azı 20%-nin** xaricdə təhsil və ya təlim müddəti təcrübəsi qazanmalı olduğunu bir daha təsdiqləyir və **bundan sonra da təhsil proqramlarını beynəlmiləlləşdirmək** və ya təhsil aldıqları müəssisələrdə **innovativ beynəlxalq tədbirlərdə iştirak etmək yolu ilə bütün tələbələrin beynəlxalq və mədəniyyətlərarası səriştələrə yiyələnməsi** və fiziki, rəqəmsal gücləndirilmiş (virtual) və ya qarışıq mobillik formalarının bəzilərində iştirak **imkanı yaradılması öhdəliyini götürürük**.

Rəqəmsal vasitələr təhlükəsiz, səmərəli və şəffaf **məlumat mübadiləsini** asanlaşdıracaqdır. Tanınma, keyfiyyət təminatı və mobillik üçün ortaq rəqəmsal yanaşmalara ehtiyac vardır. Biz BTİQ-dən Avropa Tələbə Kartı Təşəbbüsünün və digər təşəbbüslərin təcrübələrini nəzərə almaqla, rəqəmsal sistemlərin birgə fəaliyyətini və məxfilik və təhlükəsizliyə tam uyğun şəkildə tələbə və institutsional məlumatların mübadiləsini yaxşılaşdırmaq üçün mövcud olanları xəritələşdirməyi və yeni həllər tapmağı xahiş edirik.

Ali təhsil müəssisələri arasında birgə tədris və tədqiqatlar vasitəsilə daha dərin əməkdaşlıq yuxarıda qeyd olunan məqsədlərə çatmağa kömək edəcəkdir. Biz milli səviyyədə əməkdaşlıq qarşısındakı maneələrin aradan qaldırılması və AATM-dəki bütün ali təhsil müəssisələrinin bundan faydalanması üçün səy göstərəcəyik. Avropa Universitetləri Təşəbbüsü çərçivəsində yaradılmış ittifaqlar gələcəkdə ali təhsil müəssisələri tərəfindən daha sıx transmilli əməkdaşlıq qarşısında duran maneələrin aşkarlanması və aradan qaldırılması üçün faydalı ola biləcək daha dərin, geniş miqyaslı sistemli əməkdaşlığın kəşf edilməsinin mühüm yollarından biridir.

# İmplementasiya

Biz son iyirmi ildə əldə edilmiş tərəqqiyə dair **Bolonya Prosesinin İcra Hesabatında** təsvir olunan nəticələri nəzərə alırıq. Nailiyyətlər əhəmiyyətlidir. Bununla belə, AATM-in gələcək onillikdə bir-biri ilə əlaqəli, innovativ və inklüziv ali təhsili dəstəkləyə bilən güclü təməllər üzərində qurulmasını təmin etmək üçün daha çox iş görmək tələb olunur.

Biz öhdəliklərimizi dəstəkləmək üçün Erasmus Proqramının və digər mobillik və əməkdaşlıq proqramlarının davamlı dəstəyinə ümid edirik.

2018-ci il Paris Nazirlər Konfransında biz AATM-in fəaliyyəti üçün vacib olan üç **"Əsas Öhdəliyin"** reallaşdırılmasını başa çatdırmaq üçün xüsusi səylər göstərmək qərarına gəldik: Kvalifikasiya Çərçivələri və AKTS, Tanınma haqqında Lissabon Konvensiyası və Diploma Əlavə, Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Tövsiyələrə (AST) uyğun olaraq Keyfiyyət Təminatı.

Biz Əsas Öhdəliklərin tam şəkildə yerinə yetirilməsinə nail olmaqda qərarlı olduğumuzu bir daha təsdiqləyirik. Biz BTİQ-dən buna nail olmaq üçün həmkarların qarşılıqlı dəstəyi metodundan istifadə etməyə davam etməyi xahiş edirik. Biz bu prosesdə davamlı iştirak etməyə və töhfə verməyə sadiqik.

Biz **Avropa Ali Təhsil Məkanının Ümumi Kvalifikasiyalar Çərçivəsinə (KÇ-AATM)** uyğun gələn **Milli Kvalifikasiya Çərçivələrini** tamamlamağı və daha da inkişaf etdirməyi öhdəmizə götürürük və milli hesabatların ekspert qiymətləndirməsinə dair elementi daha ciddi şəkildə nəzərə almaqla BTİQ-dən özünüqiymətləndirmə meyarını yeniləməyi xahiş edirik. Biz **KÇ müxbirləri Şəbəkəsinə** KÇ-AATM-in daha da inkişafına və milli kvalifikasiya çərçivələrinin özünüqiymətləndirməsinə töhfə verərək işini davam etdirməyi tapşırırıq.

Biz **Avropa Şurası/UNESCO-nun Tanınma haqqında Lissabon Konvensiyasının** tətbiqini gücləndirəcək və onun prinsiplərini Lissabon Tanınma Konvensiyası Komitəsi və ENIC və NARIC Şəbəkələri ilə əməkdaşlıqda ümumi qiymətləndirmə meyarlarından və hesabatlardan istifadə edərək, AATM-dən kənar kvalifikasiyalara və təhsil müddətlərinə tətbiq edəcəyik.

Biz **AATM daxilində akademik kvalifikasiyaların və təhsil müddətlərinin avtomatik tanınmasını** təmin edəcəyik ki, tələbələr, heyət və məzunlar təhsil almaq, tədris etmək və tədqiqat aparmaq üçün sərbəst hərəkət edə bilsinlər. Keyfiyyət təminatının AST-yə uyğun fəaliyyət göstərdiyi və tam fəaliyyət göstərən milli kvalifikasiyalar çərçivəsinin yaradıldığı AATM ölkələrində verilən kvalifikasiyaların sistem səviyyəsində avtomatik tanınmasına zəmanət vermək üçün qanunvericilikdə zəruri dəyişiklikləri edəcəyik. Biz, həmçinin, blokçeyn kimi razılaşdırılmış və təhlükəsiz rəqəmsal sertifikatlaşdırma və kommunikasiya sistemlərinin tətbiqini, eləcə də avtomatik tanınmanı asanlaşdırmaq üçün Xarici Keyfiyyət Təminatı Nəticələrinin Məlumat Bazasının (XKTNMB) daha da inkişaf etdirilməsini təşviq edirik.

Biz Tanınma haqqında Lissabon Konvensiyasının VII Maddəsinə uyğun olaraq qaçqınların, məcburi köçkünlərin və qaçqınlarla oxşar vəziyyətdə olan şəxslərin, hətta tam sənədləşdirilmədiyi halda belə, sahib olduqları kvalifikasiyalarının ədalətli tanınmasını təmin etmək üçün öz qanunvericiliyimizi, qaydalarımızı və təcrübəmizi nəzərdən keçirməyi öhdəliyimizə götürürük. Biz Qaçqınlar üçün **Avropa Kvalifikasiya Pasportunu** alqışlayırıq və onun sistemlərimizdə istifadəsinin daha da genişləndirilməsini dəstəkləyəcəyik.

Biz AST ilə uyğunlaşdırılmış **keyfiyyət təminatı sistemlərinin** inkişafında əldə edilmiş irəliləyişləri qəbul edirik və biz AKTQ-də qeydiyyatdan keçmiş agentliklərin transsərhəd fəaliyyəti və Birgə Proqramların Keyfiyyət Təminatı üzrə Avropa Yanaşmasının tətbiqi ilə bağlı hələ də mövcud olan maneələri aradan qaldırmağı öhdəmizə götürürük. Biz xarici keyfiyyət təminatı mexanizmlərimizin ölkə daxilində göstərilən eyni xidmətlə bərabər standartlarda AATM-də transmilli ali təhsili əhatə etməsini təmin etməyi öhdəmizə götürürük. Öyrənmə üsullarının artan çevikliyini və əlçatanlığını, daha kiçik öyrənmə modullarını və ali təhsil müəssisələri arasında daha böyük sinerji ehtiyacını nəzərə alaraq, **biz ali təhsildə innovasiyanı və onun keyfiyyət təminatını dəstəkləmək üçün AST-nin təkmilləşdirməyə hədəfli istifadəsini təşviq edirik.**

Biz **Avropa Tədqiqat Məkanı** ilə əməkdaşlığı gücləndirməyi öhdəmizə götürürük. Biz BTİQ-i təhsil, tədqiqat və innovasiya siyasətləri arasında sinerji və uyğunluğu gücləndirmək  üçün Avropa Tədqiqat Məkanı və İnnovasiya Komitəsi (ATMİK) ilə sıx əməkdaşlıq etməyə çağırırıq. Əsas diqqət tədqiqata əsaslanan öyrənmənin inkişaf etdirilməsinə, akademik və elmi azadlığın təmin edilməsinə və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına yönələcəkdir.

Gələcək AATM-in əhəmiyyəti və yüksək keyfiyyəti üçün vacib olan inklüzivliyi, ünsiyyəti, əməkdaşlığı və həmrəyliyi təşviq edən daha sıx bağlı və dayanaqlı ali təhsil icması qurmağı öhdəmizə götürürük. Buna nail olmaq üçün biz milli ali təhsil sahələrimizi AATM-dəki nailiyyətlər haqqında məlumatlandırmağı və onları bu prosesə daxil etməyi, milli islahatların hazırlanması və tətbiqində tələbə və ali təhsil assosiasiyaları və şəbəkələri ilə sıx əməkdaşlıq etməyi öhdəmizə götürürük. Biz AATM-in gələcək prioritetlərini müəyyən etmək üçün aparılan geniş məsləhətləşmələrin əhəmiyyətini dərk edir və indiki və gələcək məqsədləri müzakirə etmək və onlara çatmaq üçün, habelə əməkdaşlıq yollarını tapmaq üçün BTİQ-dən daha geniş ali təhsil ictimaiyyətini (tələbələr, akademik heyət və xarici maraqlı tərəflər) əhatə edən **transmilli seminarlar, müzakirə qrupları və dinləmələr** kimi AATM tədbirlərini təşkil etməyi xahiş edirik.

# AATM qlobal kontekstdə

COVID-19 pandemiyası Qlobal Siyasət Forumunun nəzərdə tutulduğu kimi keçirilməsini qeyri-mümkün etsə də, Konfransımızın qlobal sessiyanı ehtiva etməsindən məmnunuq. Biz dünyanın digər regionlarının, eləcə də AATM-in təcrübələrindən faydalanaraq, ali təhsil dəyərləri, siyasətləri və islahatları üzrə beynəlxalq dialoqa dair öhdəlik götürür və BTİQ-dən qarşıdakı fəaliyyət dövründə Qlobal Dialoqu daha da inkişaf etdirməyi və gücləndirməyi xahiş edirik.

Biz Ali Təhsilə aid Kvalifikasiyaların Tanınması üzrə YUNESKO-nun Qlobal Konvensiyasının qəbul edilməsini alqışlayır və Tanınma haqqında Lissabon Konvensiyasına müvafiq qiymətləndirmə meyarlarından və məruzələrdən istifadə edərək, AATM xaricində kvalifikasiyaların və təhsil müddətlərinin ədalətli tanınmasını asanlaşdırmaq üçün onu dərhal ratifikasiya etməyi öhdəmizə götürürük.

Biz bu yaxınlarda yenilənmiş Universitetlərin Böyük Xartiyasına qlobal dəyərlərin - müxtəliflik, sosial və vətəndaş məsuliyyətinin daxil edilməsini yüksək qiymətləndiririk.

# Nəticə

Biz BTİQ-i 2030-cu ilə qədər bizim baxış və hədəflərimizin həyata keçirildiyi Avropa Ali Təhsil Məkanının yaradılmasına dair ümumi məqsəd əsasında növbəti onillik üçün müəyyən edilən fəaliyyətləri və prioritetləri reallaşdırmağa çağırırıq. Bizim 2024-cü ildəki Konfransımız üçün BTİQ-ə razılaşdırılmış öhdəliklərimizdə irəliləyişin qiymətləndirilməsinə dair icra hesabatı hazırlamağı tapşırırıq.

Biz Albaniyanın 2024-cü ildə AATM-in növbəti Nazirlər Konfransına və Qlobal Siyasət Forumuna ev sahibliyi etmək təklifini minnətdarlıqla qəbul edirik.

# Əlavələr

- ***Əlavə I:*** Akademik Azadlıq haqqında Bəyanat
- ***Əlavə II:*** AATM-də ali təhsilin sosial ölçüsünün gücləndirilməsinə dair Prisnip və Tövsiyələr
- ***Əlavə III:*** AATM-də Ali Təhsil sahəsində Öyrənmə və Tədrisi Təkmilləşdirmək Məqsədilə Milli Hakimiyyət Orqanlarına Tövsiyələr

# Abbreviations

Done by the translators for the Azerbaijani readers. / Azərbaycanlı oxucular üçün tərcüməçilər tərəfindən hazırlanmışdır.

- **BFUG** / Bologna Follow-Up Group – **BTİQ** / Bolonyanın Tətbiqi üzrə İşçi Qrup
- **CPD** / Continuous Professional Development – **DPİ** / Davamlı Peşəkar İnkişaf
- **DEQAR** / Database of External Quality Assurance Results – **XKTNMB** / Xarici Keyfiyyət Təminatı Nəticələrinin Məlumat Bazası
- **ECTS** / European Credit Transfer and Accumulation System – **AKTS** / Avropa Kreditlərin Transferi və Toplanması Sistemi
- **EHEA** / European Higher Education Area – **AATM** / Avropa Ali Təhsil Məkanı
- **EQAR** / European Quality Assurance Register – **AKTQ** / Avropa Keyfiyyət Təminatı Reyestri
- **ERAC** / European Research Area and Innovation Committee – **ATMİK** / Avropa Tədqiqat Məkanı və İnnovasiya Komitəsi
- **ENIC and NARIC Networks** / European Network of Information Centres in the European Region and National Academic Recognition Information Centres in the European Union – **ENIC və NARIC Şəbəkələri** / Avropa Regionunda Avropa İnformasiya Mərkəzləri Şəbəkəsi və Avropa İttifaqında Milli Akademik Tanınma üzrə İnformasiya Mərkəzləri
- **ESG** / Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area – **AST** / Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Standartlar və Tövsiyələr
- Lisbon Recognition Convention – Tanınma haqqında Lissabon Konvensiyası
- Magna Charta Universitatum – Universitetlərin Böyük Xartiyası
- Micro-credentials – Mikrokreditlər
- **QF** / Qualifications Framework – **KÇ** / Kvalifikasiyalar Çərçivəsi
- **QF-EHEA** / Qualifications Frameworks in the European Higher Education Area – **KÇ-AATM** / Avropa Ali Təhsil Məkanında Kvalifikasiyalar Çərçivəsi
- **RPL** / Recognition Prior Learning – **ÖTT** / Öncəki Təhsilin Tanınması
- Rome Ministerial Communiqué – Nazirlərin Roma Bəyanatı

Co-funded by
the European Union

This translation is co-funded by the European Union. Views and opinions expressed are however those of the author(s) only and do not necessarily reflect those of the European Union or the European Education and Culture Executive Agency (EACEA). Neither the European Union nor EACEA can be held responsible for them.

EUROPEAN
Higher Education Area

bologna
process

ITALIAN **BFUG** SECRETARIAT
**2018-2020**